

*Barat Vüsal*

## DEYİLƏM

Aşiq ürəyinə, Məcnun qəlbinə
Mən buta verənəm... buta deyiləm.
Vəhdəti-vücudun nişanəsiyəm,
Sirr dolu ümmanam... ada deyiləm.

Daim yanasıyam, işarasıyam,
Çevrilim torpağa, daşa, razıyam.
Balaca bir sual işarəsiyəm,
Dik-dik dikkildəyən nida deyiləm.

Minmişəm, düşməyim gərək atımdan,
Çatlasın... qorxmuram ürək çatından.
Mələk qanadından, fələk qatından
Uzaq düşməmişəm, cuda deyiləm.

Əbədi düşmənəm haram sözüylə,
Yaşaram... doludu yaram közüylə.
Ömrün başındakı salam sözüyəm,
Ömrün sonundakı vida deyiləm.

Ölməz insanların sorağındayam,
Solmaz kitabların varağındayam,
Hər gün gözlərinin qabağındayam,
Budur bax, burdayam... burda deyiləm.

Ay Barat, mən alov, mən su olmuşam,
"Həqq mənəm!" söyləyən Mənsur olmuşam.
Neçə məqam keçib, mən bu olmuşam,
Yox, hələ deyəsən, bu da deyiləm!

## SEVDA

***"Əbədi sevda" kitabının müəllifi Xalq şairi Sabir Rüstəmxanlıya***

Məni sevda adlı bir ana doğub,
Məni sevda əkib... atam sevdadı.
Bir günah etmişəm, günahım yoxdu,
Bir xəta etmişəm... xətam sevdadı.

Ayrılıq kəlməsi yoxdu törəmdə,
Bu nə ayrılıqdı bəs yan-yörəmdə?
O tayı, bu tayı birləşdirəndə,
Tam bir yurd alınır... o tam sevdadı.

Mən nə itaətkar, nə də asiyəm,
Nədə itaətkar, nədə asiyəm?!
Çay olub axmaqdan nə tapasıyam,
Gərək bir ümmanda itəm, sevdadı!

Mən bir olan haqqın haqq dəlisiyəm,
Savalan, Qoşqartək dağ dəlisiyəm.
Mən millət vurğunu, xalq dəlisiyəm,
Mən yurd aşiqiyəm, butam sevdadı!

Yox, səhər deyilmiş o səhərdəki,
Gələydi dediyim o səhər, təki!
Tənha ağacdımı o səhradakı?
Bitən yovşandımı... bitən sevdadı!

Qoymaram qırılsın kaşı deyilən,
Mən arif adamam, naşı deyiləm.
Bütün sevdaların başı deyirəm,
Vətənin əlindən tutan sevdadı!

Şair, sən yolçusan, var ol bu yolda,
Düşür bil ki, sənə min yol "Sağ ol"da!
"Sevda-Tanrıyacan yol çəkən sevda",
Sevda- Tanrıyacan çatan sevdadı!

***

Hardadı nuhdan qalan
Gəmi... ziyarət eylə.

Həmi min, həmi qurtul,
Həmi ziyarət eylə.

Dəysə fələyin oxu,
Tutsa əbədi yuxu.
Bircə şeirimi oxu,
Məni ziyarət eylə.

Yaradanın səbridir,
Qəlbidən də qəlbidir.
Füzulinin qəbridir,
Qəmi ziyarət eylə!

## YIXILMIŞLAR

Baxdım, qəbristanda nə gördüm allah,
Daşlar qırıq-qırıq, daşlar yıxılı...
Səsləyə-səsləyə biri-birini
Qaçmaqmı istəyir daşlar yıxılıb?!

Danışmaq istəyən danışsın görək,
Kim qaçmaq istəyir, di qaçsın görək?
Bu necə qaçmaqdı, necə yüyürmək,
Hamı yüyürməyə başlar... yıxılıb...

Daşlar da insan tək dərdli görünür,
Daşlar da peşiman, pərtdi, görünür.
Dimdik başdaşları fərqli görünür,
Daşlar bir-birinə oxşar, yıxılıb!?

Baxtlar oyanmayıb, nə ağır yatıb,
Gor yeri alıblar ağılı satıb.
Görüb ki, özünün axırı çatıb,
Xeyiri də yıxıb o Şər yıxılıb...

Mən nələr duymadım bu qəbristandan,
Qovuşub... ayrılıb insan insandan.
Elə bil, ayağa qalxdığı andan,
Yeriyə bilməyib... bəşər yıxılıb!?

## GÜZGÜ

Dərindən qaçıram, üzdən keçirəm,
Dəryadan yazmasam, nə yazıram ki?
Qartaltək əlçatmaz qayaya qonub,
Zirvədən yazmasam, nə yazıram ki?

Allahın quluyam, yurda şahammı,
Narda alışmıram, nurda yoxammı?
Yaradan yolunda qurbangahammı,
Minadan yazmasam, nə yazıram ki?!

Çeynəyib tökürəm nədən sözümü,
Yoxsa udqunuram yetən sözümü?
Hər yazı yazanda Vətən sözünü
A nadan, yazmasam, nə yazıram ki?!

Nədən ötəridi keşik deyilən,
Hələmi şairəm, aşiq deyiləm?!
Şerimlə bəşərə beşik deyiləm,
Anadan yazmasam, nə yazıram ki?!

Varammı şerimdə, qələmimdə də,
Hər bir sevincimdə, ələmimdə də.
Mən şairdim ruhlar aləmində də,
Binadan yazmasam, nə yazıram ki!

Barat, məni gərək güzgü oxşaya,
Bu yolda canını üz ki, oxşaya.
Özümə bənzəyən, düzgün oxşayan
Mənadan yazmasam, nə yazıram ki?!

## GƏLDİM

Kişilik dünyası ölüb, dedilər,
Duran kişiləri anmağa gəldim.
Amalı, əməli, sevgisi, eşqi,
Quran kişiləri anmağa gəldim.

İp salıb çəkdilər dərdin başına,
Mərd olub döndülər mərdin başına.
Bircə addımıyla Ərzin başına
Varan kişiləri anmağa gəldim.

Dost yolunda qılınc kimi sıyrılan,
Düşmənsiz qalanda yanıb qovrulan,
Allaha qul olan, haqqa sarılan
Ərən kişiləri anmağa gəldim.

Kişisiz dünyanın halı yamandı,
Kişisiz qoymayın Ərzi, amandı!
İnsafı, mürvəti, qeyrəti, andı,
Qələm kişiləri anmağa gəldim.

Taxtı gəzmədilər, taxtdı özləri,
Baxta uymadılar, baxtdı özləri.
Vaxta baxmadılar, vaxtdı özləri,
Zaman kişiləri anmağa gəldim.

Mən zəhmət vermirəm, zəhmət çəkirəm,
Sərhədin özünə sərhəd çəkirəm.
Üzündən, gözündən türklük tökülən,
Turan kişiləri anmağa gəldim.

Hər kəs dədəsinin bir gör, oğlumu?
Yolu Yaradanın düzgün yolumu?
Təpədən- dırnağa varlığı, ruhu
İman kişiləri anmağa gəldim.

Vurub yara üstdən yaranı yağı,
İki həsrətli var: aranı, dağı!
Bağban ola-ola baxçası bağı,
Viran kişiləri anmağa gəldim.

Qoy dəysin Barata minbir sədəmə,
Təki oxşadalar kişi adama!
İlk sözü, son sözü bəni- adəmə
Salam, kişiləri anmağa gəldim!

## QURD

Almaya da, heyvaya da,
Nara da qurd düşür, allah!
Min illərdi dağ başında
Qara da qurd düşür, allah!

Meydan qalıb harınlara,
Qabırğası qalınlara.
Yekə-yekə qarınlara
Hələ də qurd düşür, allah!

Ağlımın əlində badə,
Ağlımı verəndə bada,
Hərdən mənim ağlıma da
Arada qurd düşür, allah!

Görəsən qurdun sözü nə!
Görəsən qurdun özü nə?!
Görəsən qurdun özünə
Harada qurd düşür, allah?!

***

Allahın xatirinə
Dinindən keçmək olmaz.
İnsandan ötrü çəksən,
Zülümdən keçmək olmaz.

İstəsə gül verərlər,
Sonra könül verərlər.
Gözələ yol verərlər,
Önündən keçmək olmaz.

Dərd yolunda olanda,
Sağ-solunda olanda...
Yurd yolunda olanda,
Ölümdən keçmək olmaz!

## ƏTƏK

Arı kimi bal daşıyıb şanlara,
Öz gülündə, çiçəyində olanlar.
Peyğəmbər də dönüb olub, barmağı
Daim çoban tütəyində olanlar.

Amin!- deyib, qarı yolda çox qalıb,
Güldən küsüb, arı yolda çox qalıb.
Çox görmüşük, yarı yolda çox qalıb,
Onun -bunun yedəyində olanlar.

Yıxılmaqdan sən qorxmasan haqq-nahaq,
Namərd deyər: indi səni yıxım, bax!
Barat, heç vaxt bilməz nədi yıxılmaq,
Əli Allah ətəyində olanlar!